*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 27-32*

https://doi.org/10.62837/2026.7.27

**Fil.ü.f.d. RZAYEVA GÜLNAR MIRSƏLIM**
**Azərbaycan Universiteti, Tərcümə və filologiya kafedrası**
e-mail: gulnar.rzayeva@au.edu.az
Orcid: https://orcid.org/0000-0003-0584-0781

# CONATAN FRANZENİN "DÜZƏLIŞLƏR" ROMANINDA POSTMODERN CƏMİYYƏT VƏ AİLƏ DƏYƏRLƏRİNİN İNİKASI

**Xülasə**

Məqalədə müasir Amerika ədəbiyyatının tanınmış nümayəndələrindən biri olan Conatan Franzenin "Düzəlişlər" ("The Corrections", 2001) romanı postmodern cəmiyyət və ailə münasibətləri kontekstində araşdırılır. Tədqiqatın əsas məqsədi postmodern dövrün sosial, iqtisadi və mədəni dəyişikliklərinin ailə institutuna təsirini müəyyənləşdirməkdir. Məqalədə istehlak cəmiyyətinin insan münasibətlərinə təsiri, fərdiyyətçiliyin güclənməsi, nəsillərarası konfliktlər, emosional yadlaşma və kimlik böhranı kimi problemlər təhlil edilir.

Araşdırma göstərir ki, Franzen realist ənənəni postmodern estetik üsullarla birləşdirərək çağdaş Amerika nəsrində yeni humanist baxış formalaşdırır. Yazıçının romanında fərdi seçim və şəxsi azadlıq anlayışları paradoksal xarakter daşıyır; personajların özünüreallaşdırma cəhdləri çox zaman mənəvi tənhalığa, ailədaxili uzaqlaşmaya və daxili parçalanmaya gətirib çıxarır. Məqalə müqayisəli-ədəbi, psixoloji və sosial-tənqidi yanaşma metodlarına əsaslanır.

**Açar sözlər:** Conatan Franzen, postmodernizm, ailə münasibətləri, istehlak cəmiyyəti, kimlik böhranı.

**RZAYEVA GULNAR**

## POSTMODERN SOCIETY AND THE REFLECTION OF FAMILY VALUES IN JONATHAN FRANZEN'S "THE CORRECTIONS"

**Abstract**

The article examines "The Corrections" by the prominent contemporary American writer Jonathan Franzen in the context of postmodern society and family relations. The main aim of the research is to identify the impact of the social, economic, and cultural transformations of the postmodern era on the institution of the family. The article analyzes such issues as the influence of consumer society on human relationships, the growth of individualism, intergenerational conflicts, emotional alienation, and identity crisis.

The study demonstrates that Franzen combines realist tradition with postmodern aesthetic techniques, thereby shaping a new humanistic perspective in contemporary American fiction. In the novel, the concepts of individual choice and personal freedom possess a paradoxical nature; the characters' attempts at self-

realization often lead to moral loneliness, familial estrangement, and inner fragmentation. The article is based on comparative literary, psychological, and socio-critical approaches.

**Keywords:** Jonathan Franzen, postmodernism, family relations, consumer society, identity crisis.

## ПОСТМОДЕРНИСТСКОЕ ОБЩЕСТВО И ОТРАЖЕНИЕ СЕМЕЙНЫХ ЦЕННОСТЕЙ В РОМАНЕ ДЖОНАТАНА ФРАНЗЕНА «ПОПРАВКИ»

**Резюме**

В статье исследуется роман «Поправки» одного из известных представителей современной американской литературы Джонатана Франзена в контексте постмодернистского общества и семейных отношений. Основная цель исследования заключается в выявлении влияния социальных, экономических и культурных изменений постмодернистской эпохи на институт семьи. В статье анализируются такие проблемы, как влияние общества потребления на человеческие отношения, усиление индивидуализма, межпоколенческие конфликты, эмоциональное отчуждение и кризис идентичности. Исследование показывает, что Франзен сочетает реалистическую традицию с постмодернистскими эстетическими приемами, формируя тем самым новый гуманистический взгляд в современной американской прозе. В романе понятия личного выбора и свободы имеют парадоксальный характер; стремление персонажей к самореализации нередко приводит к моральному одиночеству, семейному отчуждению и внутренней раздробленности. Статья основана на сравнительно-литературном, психологическом и социально-критическом методах исследования.

**Ключевые слова:** Джонатан Франзен, постмодернизм, семейные отношения, общество потребления, кризис идентичности.

**Giriş.** Müasir Amerika ədəbiyyatında ailə mövzusu hər zaman mühüm yer tutmuşdur. Lakin postmodern dövrün yaratdığı sosial, iqtisadi və mədəni dəyişikliklər bu mövzunun yeni yanaşmalar və fərqli estetik baxışlar çərçivəsində işlənməsini zəruri etmişdir. C. Franzen bu kontekstdə çağdaş Amerika nəsrinin ən diqqətçəkən yazıçılarından biri hesab olunur. O, bir tərəfdən klassik realizm ənənəsindən, digər tərəfdən isə postmodern düşüncənin tənqidi və ironik mahiyyətindən istifadə edərək müasir Amerika ailəsinin mürəkkəb və ziddiyyətli mənzərəsini yaradır. Franzenin yaradıcılığı, xüsusilə "Düzəlişlər" ("The Corrections", 2001) romanı müasir ədəbiyyatşünaslıqda geniş araşdırılan əsərlər sırasındadır. Roman yalnız ailə münasibətlərinin təsviri ilə məhdudlaşmır; eyni zamanda istehlak cəmiyyətinin, kapitalist münasibətlərinin və fərdi azadlıq anlayışının dərin sosial və psixoloji tənqidini təqdim edir. S. J. Börn qeyd edir ki,

Franzen postmodernizmin estetik sərhədlərini aşaraq yeni realist düşüncə modelinə yaxınlaşır [1]. Bu baxımdan yazıçının yaradıcılığı həm ədəbi, həm də sosioloji araşdırmalar üçün zəngin material hesab olunur. Tədqiqatın əsas məqsədi "Düzəlişlər" romanında postmodern cəmiyyətin ailə dəyərlərinə təsirini və bu təsirin hansı bədii vasitələrlə ifadə olunduğunu müəyyənləşdirməkdir. Tədqiqatın obyekti Conatan Franzenin "Düzəlişlər" romanı, predmeti isə əsərdə postmodern ailə modelinin sosial-psixoloji xüsusiyyətləridir. Məqalədə müqayisəli-ədəbi, sosioloji və psixoloji təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın elmi yeniliyi Franzenin humanist tənqid konsepsiyasının Azərbaycan ədəbiyyatşünaslığında sistemli şəkildə araşdırılması ilə bağlıdır.

**Postmodern cəmiyyət və müasir amerika ailəsi problem.** Postmodernizm XX əsrin ikinci yarısından etibarən Qərb mədəniyyətinin və ictimai düşüncəsinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu dövrdə ənənəvi dəyərlər sistemi, sabit kimlik anlayışı və sosial münasibətlər ciddi transformasiyaya məruz qalmışdır. Fransız filosofu Jan Bodriyar "Simulyakr və simulyasiya" nəzəriyyəsində göstərir ki, müasir cəmiyyətdə gerçəklik tədricən onun süni obrazları ilə əvəz olunur və insanlar artıq reallığın özündən daha çox onun təqdim olunmuş formalarını istehlak edirlər [2]. Bu yanaşma müasir ailə münasibətlərini anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. İnsanlar həqiqi emosional bağlılıq əvəzinə media və istehlak mədəniyyətinin yaratdığı münasibət modellərini mənimsəyirlər. Postmodern Amerika cəmiyyəti böyük ideoloji sistemlərin zəifləməsi, dəyərlərin nisbiləşməsi və istehlak mədəniyyətinin dominant mövqeyə yüksəlməsi ilə xarakterizə olunur. C. Nilon post-postmodernizm anlayışını şərh edərkən qeyd edir ki, müasir kapitalizm insanı yalnız iqtisadi deyil, həm də psixoloji baxımdan sistemdən asılı vəziyyətə salır [3]. Bu vəziyyət ailə institutuna da təsir göstərir. Fərdlər ailə daxilindəki mənəvi məsuliyyətdən uzaqlaşaraq şəxsi rahatlıq, karyera və fərdi arzulara üstünlük verməyə başlayırlar. Ənənəvi ailə modeli, yəni qarşılıqlı qayğı, sabitlik və ortaq dəyərlər sistemi üzərində qurulan münasibətlər forması postmodern dövrdə ciddi dəyişikliklərə məruz qalmışdır. Fərdiyyətçilik ideologiyasının güclənməsi nəticəsində ailə münasibətləri getdikcə daha çox şəxsi maraqlar üzərində qurulan əlaqə formasına çevrilir. Yazıçının "Düzəlişlər" ("The Corrections", 2001) romanı postmodern dövrdə ailə institutunun keçirdiyi böhranı, fərdiyyətçiliyin güclənməsini və emosional yadlaşmanı dərin psixoloji təhlillərlə təqdim edir. Franzen üçün ailə yalnız şəxsi münasibətlər məkanı deyil, həm də cəmiyyətin mənəvi vəziyyətini göstərən sosial modeldir. Franzenin estetik mövqeyi onun nəzəri yazılarında da aydın görünür. "Tənha olmağın yolları" ("How to Be Alone", 2002) esse toplusunda müəllif romanın yalnız estetik deyil, həm də etik məsuliyyət daşıdığını vurğulayır [4]. Onun fikrincə, ədəbiyyat insanın daxili həyatını, ailə münasibətlərini və sosial mühitin şəxsiyyətə təsirini dürüst şəkildə əks etdirməlidir. P. Douson qeyd edir ki, Franzen XXI əsr nəsrində hər şeyi bilən nəqledici modelini yenidən aktuallaşdıraraq

personajların daxili dünyasını daha geniş şəkildə açmağa nail olur [5]. Bu xüsusiyyət yazıçının realist və postmodern elementləri uğurla birləşdirməsinə imkan yaradır. Franzen yaradıcılığında ironiya mühüm bədii vasitədir. Lakin bu ironiya postmodern ədəbiyyatda olduğu kimi soyuq və məsafəli xarakter daşımır. Yazıçı Amerika orta sinfinin illüziyalarını, ailədaxili münasibətlərdəki süni harmoniyanı və istehlak cəmiyyətinin yaratdığı mənəvi boşluğu tənqid etsə də, personajlarına qarşı empatik münasibəti qoruyur. Bu xüsusiyyət Franzen yaradıcılığına humanist məzmun qazandırır. “Düzəlişlər” (“The Corrections”, 2001) romanı Lambert ailəsinin timsalında Amerika cəmiyyətinin mənəvi böhranını əks etdirir. Romanın mərkəzində Alfred və Enid Lambert, eləcə də onların üç övladı dayanır Alfred Lambert Alzaymer xəstəliyi ilə mübarizə aparan yaşlı ata obrazı kimi ənənəvi patriarxal dəyərlərin son nümayəndəsi təsiri bağışlayır. Onun fiziki və mənəvi zəifləməsi ailə institutunun dağılmasının simvoluna çevrilir. Romanın əsas konfliktlərindən biri nəsillərarası qarşıdurmadır. Yaşlı nəslin vəzifə hissi, ailə birliyinə bağlılıq və fədakarlıq kimi dəyərləri gənc nəslin fərdiyyətçi düşüncəsi ilə toqquşur. Çip, Deniz və Qeri ailədən uzaqlaşmağa çalışsalar da, bu uzaqlaşma onları azadlığa deyil, daha dərin mənəvi tənhalığa aparır. S. Hosseini, H. Pirnəcmuddin və P. Abbasi qeyd edirlər ki, Franzen personajlarını birtərəfli şəkildə təqdim etmir; onların hər biri mürəkkəb daxili dünyaya malikdir [6]. Kapitalist münasibətlərin ailə dəyərlərinə təsiri xüsusilə Enid Lambert obrazında özünü göstərir. O, övladlarının “düzəlməsini”, yəni cəmiyyətin qəbul etdiyi orta sinif normalarına uyğunlaşmasını istəyir. Lakin bu arzu artıq istehlak cəmiyyətinin formalaşdırdığı dəyərlər sisteminə bağlıdır. Romandakı “düzəliş” anlayışı həm ailədaxili münasibətləri, həm iqtisadi dəyişiklikləri, həm də insan psixologiyasının süni şəkildə “tənzimlənməsi”ni ifadə edir. “Düzəlişlər” romanında texnologiya və istehlak mədəniyyətinin ailə münasibətlərinə təsiri də mühüm yer tutur. Psixotrop dərmanların insan emosiyalarını süni şəkildə idarə etməsi bu vəziyyətin ən təsirli nümunələrindən biridir. İnsanlar artıq öz təbii hisslərini deyil, texnologiya və istehlak sisteminin yaratdığı emosional vəziyyəti yaşayırlar. Franzen istehlak cəmiyyətinin ailə münasibətlərinə təsirini abstrakt nəzəri fikirlərlə deyil, gündəlik həyat detallarının təsviri ilə göstərir. A. Lambertin həddindən artıq qənaətcilliyi və Enid Lambertin nümayişkaranə istehlak davranışı eyni sosial sistemin fərqli təzahürləri kimi təqdim olunur. Yazıçı göstərir ki, istehlak ideologiyası ailədaxili münasibətlərə nüfuz etdikcə insanlar arasındakı emosional bağlılıq zəifləyir və ailə tədricən mənəvi bütövlüyünü itirir. Franzen yaradıcılığında postmodern cəmiyyətin tənqidi ailə münasibətləri, fərdi kimlik problemi və istehlak mədəniyyətinin insan psixologiyasına təsiri üzərindən həyata keçirilir. Yazıçı kapitalizmi abstrakt iqtisadi sistem kimi deyil, gündəlik həyatın bütün sahələrinə nüfuz edən sosial və psixoloji mexanizm kimi təqdim edir. “Düzəlişlər” romanında Çip, Deniz və Qeri Lambert maddi baxımdan uğurlu həyat qurmağa çalışsalar da, bu uğur onları ailədən, bir-

birindən və öz daxili həqiqətlərindən uzaqlaşdırır.. Kimlik böhranı Franzen yaradıcılığının əsas problemlərindən biridir. Personajlar daim özlərini və həyatdakı yerlərini anlamağa çalışırlar. "Düzəlişlər" romanında Çip Lambertin həyatı bu baxımdan xüsusilə diqqət çəkir. Universitet mühitindən Litvadakı uğursuz macəraya qədər keçdiyi yol onun həqiqi kimlik axtarışını göstərir. Lakin bu axtarış çox zaman özünüaldatma ilə nəticələnir. Franzen romanlarında müasir insanın tənhalığı dərin psixoloji detallarla təsvir edilir. Eyni evdə yaşayan insanlar bir-birinə emosional baxımdan yadlaşmış vəziyyətdədirlər. Xarici yaxınlıq görüntüsünün arxasında isə ciddi ünsiyyətsizlik və daxili təcrid hissi gizlənir. Bu baxımdan Jan Bodriyarın simulyakr nəzəriyyəsi Franzenin bədii dünyası ilə səsləşir: ailə münasibətləri çox zaman həqiqi emosional bağlılığın deyil, onun görüntüsünün simulyasiyasına çevrilir [2]. "Düzəlişlər" romanının sonunda Lambert ailəsinin yenidən bir araya gəlməsi yazıçının insanın bağışlamaq, sevmək və yenidən yaxınlaşmaq qabiliyyətinə olan inamını göstərir. Bu sonluq ideal xoşbəxtlik modeli deyil, insan münasibətlərinin bütün çətinliklərə baxmayaraq davam edə bilməsi fikrinin ifadəsidir. Məhz bu xüsusiyyət Franzenin ədəbi mövqeyini müəyyənləşdirir. Yazıçı postmodern ironiyanın tənqidi mahiyyətini realist ənənənin humanist baxışı ilə birləşdirərək müasir Amerika ailəsinin sosial və mənəvi dramını dərin psixoloji çalarlarla təqdim edir

**Nəticə.** Beləliklə, Conatan Franzen müasir Amerika ədəbiyyatında ailə münasibətlərini postmodern cəmiyyətin sosial və mənəvi problemləri kontekstində araşdıran mühüm yazıçılardan biridir. "Düzəlişlər" romanının təhlili nəticəsində müəyyən edilmişdir ki, müəllif ailə institutunun böhranını yalnız şəxsi münasibətlər səviyyəsində deyil, bütövlükdə müasir Amerika cəmiyyətinin sosial, iqtisadi və psixoloji dəyişiklikləri fonunda təqdim edir. Franzen ailəni həm fərdi dramların yaşandığı məkan, həm də cəmiyyətin ümumi mənəvi vəziyyətini əks etdirən sosial model kimi təsvir edir və Franzen realist ədəbi ənənəni postmodern estetik üsullarla birləşdirərək çağdaş Amerika nəsrində yeni humanist düşüncə istiqaməti formalaşdırır. Yazıçının romanında azadlıq, kimlik və ailə anlayışları bir-biri ilə sıx bağlı şəkildə təqdim olunur. Personajların azadlıq axtarışı çox zaman mənəvi tənhalığa, kimlik axtarışı isə daxili parçalanmaya gətirib çıxarır. Müəllif göstərir ki, müasir insan maddi rifah və fərdi uğur əldə etsə belə, emosional yaxınlıq və mənəvi bütövlük hissini itirə bilir. Franzen yaradıcılığının mühüm xüsusiyyətlərindən biri onun tənqidi-humanist mövqeyidir. Yazıçı nə ənənəvi ailə modelini idealizə edir, nə də postmodern fərdiyyətçiliyi tam şəkildə qəbul edir. O, ailə böhranının səbəblərini həm kapitalist münasibətlərdə, istehlak mədəniyyətində və texnoloji yadlaşmada, həm də insanın şəxsi mənəvi seçimlərində görür. Bu çoxqatlı yanaşma Franzeni müasir dünya ədəbiyyatında xüsusi yer tutan yazıçılardan birinə çevirir.

Nəticə etibarilə, Conatan Franzenin "Düzəlişlər" romanı müasir Amerika ailəsinin sosial və mənəvi transformasiyasını anlamaq baxımından mühüm ədəbi

mənbə kimi qiymətləndirilə bilər. Əsər postmodern dövrdə ailə münasibətlərinin mürəkkəbliyini, insanın daxili tənhalığını və mənəvi axtarışlarını dərin psixoloji və sosial çalarlarla əks etdirir.

## Ədəbiyyat

1.Burn S. J. Jonathan Franzen at the End of Postmodernism. Bloomsbury Publishing, 2008.
2.Baudrillard J. Simulacra and Simulation. Ann Arbor: University of Michigan Press, 1994.
3.Nealon J. T. Post-Postmodernism: Or, the Cultural Logic of Just-in-Time Capitalism. Stanford University Press, 2012.
4.Franzen J. How to Be Alone: Essays. New York: Picador, 2002.
5.Dawson P. The Return of the Omniscient Narrator: Authorship and Authority in Twenty-First Century Fiction. Columbus: Ohio State University Press, 2013.
6.Hosseini S., Pirnajmuddin H., Abbasi P. Jonathan Franzen's The Corrections: Ethics of Complexity // Journal of Language Studies. 2018. Vol. 18, № 4. P. 186–200.

**Rəyçi: f.e.d., prof. Qorxmaz Quliyev**